**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№320/1** **20 may 2020-ci il**

## 2019-cu ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi barədə

"Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyasının (2012-2020-ci illər)" VI fəslinin 16-cı bəndinə və Auditorlar Palatasının 2020-ci il üzrə iş planının 1.5-ci "2019-cu ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi" bəndinin icrası ilə əlaqədar və Auditorlar Palatası Şurasının 2012-ci il 17 iyul tarixli 233/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"ya əsasən Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2019-cu ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi ilə əlaqədar hazırlanmış "Auditorların reytinq cədvəli" nəzərə alınsın (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, Palata üzvlərinin tanış olması və onlar tərəfindən yarana biləcək sualların aydınlaşdırılması məqsədi ilə 2019-cu ilin nəticələri üzrə "Auditorların reytinq cədvəli"nin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Bu qərarın mətninin və "Auditorların reytinq cədvəli"nin dəqiqləşdirilmiş göstəricilərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**